

**Rəşad Mustafa**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

# Azərbaycan IX-XI əsrlərdə

## *Siyasi tarix*

### *Mütəğallib qrupların sərhədyanı bölgələrdə qurduqları dövlətlər*

### *Şirvanşahlar dövləti*

Şirvanşahlar dövlətini quran Məzyədilər sülaləsi bölgəyə xilafətin hakim olduğu illərdə gəlmişdi. Sülalə adını bölgəyə VIII əsrin 80-ci illərində Azərbaycana canişin təyin edilən Yəzid ibn Məzyəddən almışdır. Hakimiyyəti dövründə bölgəyə öz tayfasına (bənu rəbiə) mənsub xeyli miqdarda ərəbi köçürən Yəzid mövqeyini möhkəmlədə bilmişdi[1]. Ondan sonra oğlu Xalid, nəvəsi Məhəmməd də Azərbaycanın canişinləri olmuş, bölgəni xəlifənin adından idarə etmiş, yəni canişinlik irsi ötürülməyə başlanmışdı. Məhəmməd bir müddət sonra hakimiyyətdən əl çəkmiş, bərpa etdiyi Gəncədə yaşamağa başlamışdı. Onun hakimiyyətdən çəkildiyini fürsət bilən qardaşları Heysəm ibn Xalid Şirvanı, digər qardaşı Yəzid isə Layzanda (Lahıc və ətrafı) müstəqilliklərini elan etmişdilər[2]. Beləliklə, Azərbaycanda 861-ci ildə Şirvan dövlətinin əsası qoyulmuşdu. Eyni sülalə tərfindən idarə edilən bu dövlətlər 917-ci ildə Layzan hakimi Əbu Tahir tərəfindən birləşdirilmişdi. O paytaxtı Şamaxıya köçürmüş, buranı bərpa edib Yəzidiyyə adlandırmış, sərhədləri Kür çayından Dərbəndə qədər genişləndirmişdi. Bu birləşməni labüd edən səbəb güman ki, Şirvan hakimlərinin 913-cü ildə rus yürüşlərinə qarşı göstərdiyi zəif müqavimət olmuşdu[3]. Eyni zamanda, hakimiyyətlərini qorumaq üçün Şirvanşahlar bu dövrdə Azərbaycanın cənubunda mövcud olan Sacilər dövlətinə bac verməyə başlamış, onların hakimiyyətini qəbul etmişdilər[4].

---

[1] Minorsky V. A History of Sharvan and Darband in 10th-11th centuries. Cambridge, 1958, p.23; Минорский В.Ф. История Ширвана и Дербенда X-XI веков. Москва, 1963, с. 44
[2] Yenə orada, s.46-48
[3] Əl-Məsudi. Muruc əz-Zəhəb və Məadin əl-Cəvahir. A'tənə bih və raciəhi Kamal Həsən Mər'i. C.1. Beyrut, 2005, s.142
[4] Şərifli M. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 2015, s.138-139

Şirvanşahlar dövləti Azərbaycanı şimal hücumlarından qoruyan qala qapısı rolunu oynamışdır. Rusların ilk hücumları, adətən, Xəzərin Şirvan sahillərindən olmuşdur. İlk yürüşlərdə ruslar qarşısında uğursuz olan şirvanlılar sonrakı dövrdə ruslara qarşı uğurlu müqavimət göstərməyə nail ola bilirlər. Hətta Şirvanşah Məhəmməd (981-991) ruslara məğlub olan xəzər, burtas və bulqarlara Atil və Xəzərandan ölkəsinə gəlməyə yardım etmiş, onlar da Şirvanşahlara tabe olmuşdular[5]. XI əsrdə Şirvanın ruslara qarşı mübarizəsi daha uğurlu olmuşdur. Şirvanşah Mənüçöhr 1030-cu ildə Şirvan sahillərinə 38 gəmi ilə hücum edən rusları ölkənin içərilərinə girmələrinə mane olmuşdu. Yalnız Şəddadi Əbülfəth Musa ibn Fəzlin (1031-1034) köməyi gəldikdən sonra bu təhlükə sovuşdurulmuş və yadellilər şəddadilərlə sövdələşərək Beyləqana – Əsgəriyyənin (Əskuyə) qiyamını yatırmağa getmişdilər[6].

XI əsrdə Azərbaycana Səlcuqlu oğuzlarının böyük yürüşləri baş verir. 1066-cı ildə səlcuqlular iki dəfə Qara Teginin (Təkin) rəhbərliyi ilə Şirvana hücum etdilər. Şirvanda səlcuqlularla müttəfiqlik arzusunda olan güclü saraydaxili qrup var idi. Buna görə də Şirvanşah əmisi Qubadın qızını Qara Teginə ərə verməklə qohumluq əlaqələri yaratdı. Həmin ilin sonunda Səlcuq sultanı Alp Arslanın Şirvana yürüşü zamanı Fəribürz sultana hədiyyələr verdi, ona öz xidmətini təklif etdi və əvəzində Səlcuqlu himayəçiliyi üçün təminat aldı. Şirvanşahlar Səlcuq imperiyasının vassal asılılığına düşdü.

### *Dərbənd əmirliyi*

Ərəblər Azərbaycanı tutduqdan sonra Dərbəndi Xilafətin Qafqazdakı iri istinad məntəqələrindən birinə çevirmişdi. Əməvilərin məşhur sərkərdələrindən Mərvan ibn Məhəmməd 732-737-ci illərdə xəzərlər üzərinə etdiyi yürüşdə Dərbəndə öz nümayəndəsi kimi Suləmilər ailəsindən Əsid ibn Zafir əs-Suləmini təyin etmişdi[7]. Sonralar bu ailədən olan Yezid ibn Əsid və Abdul-ala ibn Əhməd əs-Suləmi Azərbaycanın canişinləri seçilmişdi. Digər mutəğallib qruplar kimi suləmilər də vaxt keçdikcə zəifləmişdi. Məhz bu ailədən ayrılan Haşimilər qolu Dərbənddə irsi hakimiyyətin əsasını qoymuşdur.

VIII əsrin sonlarında Suləmilərin Dərbənddəki qolu şəhəri qorumaq bəhanəsi ilə vergidən yayınır və şəhəri müstəqil idarə edirdilər. 799-cu ildə Dərbənd hakimi Həyyun ibn Nəcm Xəzər xaqanı ilə ittifaqa girmiş, xəzər ordularının Dərbənd keçidindən keçməsinə və Arrana hücum etməsinə şərait yaratmışdı. Bu hadisədən sonra Harun ər-Rəşidin (786-809) Suləmilərə etimadı sarsılmış, bölgəyə vali kimi

---

[5] Əbu əl-Qasım İbn Havqəl ən-Nəsibi. Kitəbu Surətu əl-Ard. Beyrut, 1992 , s.336

[6] Şərifli M. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri., s.98-99; Minorsky V. A History of Sharvan and Darband, p.31-32; Minorsky V. Studies in Caucasian History. London, 1953, p. 17

[7] Əl-Bəlazuri. Futuh əl-Buldan. Haqqaqahu Abdullah Ənis Tubba. Beyrut, 1987, s.292

Rəbiə tayfasından Yəzid ibn Məzyədi təyin etmişdi[8]. Bu təyinat eyni zamanda gələcəkdə Şirvan hakimləri olacaq Məzyədilərlə Haşimilərin Dərbənd uğrunda arasıkəsilməz mübarizəsinin də başlanğıcını qoymuşdu.

Mərkəzi Dərbənd qalası olan Suləmilərin əsas fəaliyyəti şimaldan Xilafətə gələn təhlükəni sovuşdurmaq, buradan şimala və qərbə doğru yürüşlər həyata keçirərək yerli əhali arasında İslamı yaymaq, beləliklə bufer zonanı İslam dünyasının xeyrinə böyütmək idi. Buna görə də Suləmilərin bu fəaliyyəti özlərinin hərbi birləşməsinin mövcudluğuna gətirib çıxarmış, daxili idarəetməsinin yarımmüstəqilliyinə səbəb olmuşdu. 861-ci ildə, qiyam qaldırmış türk əmirlərinə qarşı Xilafət mərkəzində mübarizə aparıldığı bir zamanda, Haşim ibn Suraqa əs-Suləmi (861-884) şəhər qazilərinin (hərbi yürüş iştirakçıları) və əhalinin yardımı ilə tam müstəqil hakimiyyətə nail olmuşdu. Xilafətə tabe olmamaqlarına baxmayaraq onlar köhnə vəzifələrini yerinə yetirmiş, həm əmir Haşim, həm də oğlu əmir Məhəmməd (886-915) ərazilərini genişləndirmək və İslam dinini yaymaq üçün qonşu Sərir torpaqlarına dəfələrlə uğurlu yürüşlər təşkil etmişdilər[9].

Əmir Əbdülməlikin (916-939) hakimiyyətinin ilk illərində əmirlik Azərbaycanın Saci hökmdarı Yusif ibn Əbu Saca tabe olmuş, Əbdülməliki vassalına çevirmiş Yusif Dərbəndə gələrək şəhərin qala divarlarının bərpasına başçılıq etmişdi[10]. Dərbənd Sacilərdən sonra Azərbaycan dövlətini idarə edən Salarilərin vassal asılılığında olmuşdur[11].

Azərbaycanın şimal qapısı olan Dərbənd rusların yürüşlərini ilk qarşıladıqlarından onların fəaliyyətlərinə yaxından bələd idilər. Hətta, Əmir Məymunun (976-997) hakimiyyət illərində Dərbənddə ruslardan ibarət xüsusi hərbi mühafizə dəstəsi də saxlanılırdı. Buna baxmayaraq, Dərbəndin əsas vəzifəsi şimal yürüşlərinə layiqli cavab vermək olmuşdur. Əmir Mansur (1003-1034) 1032-ci ildə Dərbənd qaziləri ilə birgə, Şirvan yürüşündən geri qayıdan rusların qabağını kəsmiş, onları məğlub edərək Şirvanın intiqamını almışdır. Bu dövrdə Şirvanın Dərbəndi öz torpaqlarına qatmaq üçün həm siyasi, həm də hərbi cəhdləri olduğunu nəzərə almaq lazımdır. 1033-cü ildə ruslar və alanlar məğlubiyyətin əvəzini çıxmaq üçün Dərbəndə hücum etmiş, onların qarşısı çox az qüvvə ilə Kurax ətrafında kəsilmiş və Heysəm ibn Məymun rəhbərliyində dərbəndlilər ruslar və alanları darmadağın edərək Azərbaycan torpaqlarına daxil olmalarını əngəlləmişdilər[12].

Səlcuqluların gəlişinə qədərki dövrdə şirvanşahların müdaxiləsi nəticəsində Dərbənddə əmir hakimiyyəti zəifləmişdi. Əmirlik gah Şirvanşahın təyin etdiyi

---

[8] İbn əl-Əsir. Əl-Kamil fi-t Tarix, V c. (raciahu va sahhahu Dr. Muhamməd Yusuf Daqqaqa) Beyrut, 1987, s. 319; Əl-Kufi. Kitab əl-Futuh. VII-VIII c. Beyrut, 1991, s. 383

[9] Minorsky V. A History of Sharvan and Darband., p.42

[10] Şərifli M. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri., s.138-139

[11] İbn Miskaveyh, Təcarub əl-Uməm., V cild, Beyrut, 2003, s.316; Şərifli M. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan., s. 223, 239

[12] Minorsky V. A History of Sharvan., p. 46-47

nümayəndə tərəfindən, gah rəislər tərəfindən idarə edilmişdi. Yalnız 1068-ci ildə Alp Arslanın hacibi Savtəkin Dərbənddə siyasi sabitliyi təmin etmiş, onun Dərbənddən gedişindən sonra əmir Əbdülməlik (1065-1075) Dərbənddə möhkəmlənə bilmişdi. 1075-ci ildə dərbəndlilər Əbdülməlikə qarşı qiyam qaldırdıqları üçün Alp Arslanın elçisi Əhməd ibn Əli əl-Baba daxil olaraq Dərbəndin sərkərdə Savtəkinə verildiyini, xütbələrdə sultandan sonra onun adının çəkilməsinin lazımlı olduğunu bildirmişdi. Bu hadisədən sonra Suləmilər ailəsinin Haşimilər qolunun Dərbənd hakimliyi dövrü başa çatmışdır. Həmçinin, Şirvanşahların Dərbəndi ələ keçirmək üçün bir əsrə qədər davam edən cəhdləri də müvəqqəti olaraq dayandırılmışdı.

### *Tiflis əmirliyi*

Tiflis bölgəsi tarixən mədəni, siyasi və etnik cəhətdən Azərbaycanla bağlı olmuşdur. Antik müəlliflərin əsərlərində Tiflisin alban şəhərlərindən biri olduğu göstərilmiş, Tiflis və ətraf ərazilər, Dəryal keçidinə qədər indiki Şərqi Gürcüstan Albaniya tərkibində, alban tayfalarının yayıldıqları areal kimi qələmə verilmişdir[13]. Bölgənin Ərəb xilafətinin tərkibinə daxil olmasından sonra da ərazi mədəni və siyasi olaraq Arran/Albaniya inzibati vahidinin içində qalmışdır. İstəxri (X əsr) Arranda Bərdə, Bab əl – Əbvab və Tiflisdən böyük şəhər olmadığını və Arranın sərhədinin şərqdən qərbə Bab əl – Əbvabdan Tiflisə qədər olduğunu yazmışdır[14]. İbn Havqəl (X əsr) İstəxrinin fikirlərini təkrar etmişdir: "…Arranda Bərdə, əl-Bab və Tiflisdən böyük şəhərlər yoxdur"[15]. Əl-Müqəddəsi (d. 946 – ö. 1000) isə Tiflis haqqında belə yazmışdır: "Bərdənin (Arranın) şəhərləri: Tiflis, Qala, Xunan, Şəmkur, Cənzə ... Qəbələ, Şəkki, Malazkərd, Təbla (Telavi) ... Arran dəniz və Araz çayı arasında adaya oxşayır və bütün iqlimin 1/3-i təşkil edir... Paytaxtı Bərdədir."[16]

Tiflis bölgəsi VIII-IX əsrlərdə müasir Gürcüstanın Kaxetiya bölgəsi istisna edilməklə bütün şərq və cənub torpaqlarını əhatə edirdi və bəzən hüdudları daha da genişlənirdi. Dərbənd kimi Tiflis də sərhəd şəhəri olduğundan burada hərbi qarnizon yerləşir, hakimləri yarım müstəqil fəaliyyət göstərir, Xilafət mərkəzinin göstərişi olmadan qərbə və şimala doğru yayılır, oradan gələn hücumların qarşısını alırdılar. Bu vəziyyət getdikcə onları mutəğalliblərə-çevirməyə başladı. Abbasi xəlifəsi Harun ər-Rəşid dövründə Tiflis hakimləri o qədər güclənmişdi ki, sonrakı xəlifə Əminin (809-813) dövründə bölgədəki Əməvi sülaləsi dövründən qalan ailənin nümayəndəsi İsmayıl ibn Şuayb artıq mərkəzi hakimiyyətə tabe olmaq istəmirdi. Şuaybilər

---

[13] Mustafa R. Tiflis əmirliyi. Bakı, 2019. s. 45-49

[14] Əl-İstəxri, Əbu İshaq əl-Farisi. Kitab əl-Məsalik əl-Məmalik. Leyden. 1870, s. 187

[15] İbn Havqəl. Kitab əl-Məsalik və əl-Məmalik. Leyden, 1872, s. 243

[16] Əl-Müqəddəsi, Şəmsəddin Əbi Abdullah Muhamməd ibn Ahməd ibn Əbi Bəkr. Əhsən ət-təqasim fi mə'rifəti əl-əqalim. Leyden, 1877, s.374

sülaləsinin əsasını qoymuş Tiflis əmiri İsmayıl 809-cu ildən sonra mərkəzi hakimiyyətə qəti tabe olmamış, müstəqilliyini elan etmişdi. 827-ci ildə Azərbaycana canişin təyin edilən Məzyədilər sülaləsindən Xalid ibn Yəzid Tiflis və ətrafını mərkəzi Bərdə olan Arrana tam tabe etmişdi. Bir müddət sonra İsmayıl ibn Şuaybın qardaşı Əli ibn Şuayb və İshaq ibn İsmayıl Tiflisdə hakimiyyətlərini yenidən bərpa etmişdilər. Məhz İshaqın dövrü (830-853) Tiflis əmirliyinin ən parlaq dövrü kimi qəbul edilir. İshaq 829-cu ildə Bizans imperatoru Feofilin (829-842) orduları Vənənd (Qars və ətrafı) ərazisinə daxil olduqları zaman onları məğlub etmişdi. Abxazlar isə ona vergi ödəməyə məcbur olmuşdular. Müstəqil hərəkət etməsinə baxmayaraq, onun Xəlifə Vasiqlə (842-847) və dövrün Xəzər xaqanı ilə münasibətləri yaxşı idi və müəyyən vaxtlarda onlar arasında vasitəçi və diplomatik missiyalar üçün bələdçi rolunu oynayırdı.

İshaqın artan gücü və müstəqilliyi müəyyən müddətdən sonra Xilafəti narahat etmişdi. Xəlifə Mütəvəkkil (847-861) İshaq ibn İsmayılın üzərinə sərkərdə Buğanı göndərmişdir. İshaq oğlu Ömərlə birgə əsir düşərək edam edilmişdi[17]. Bölgə birbaşa Məzyədilər sülaləsinin nümayəndəsi Məhəmməd ibn Xalidin idarəsində olan Bərdə mərkəzli Arran inzibati vahidinə tabe edilmişdi[18]. IX əsrin 60-cı illərində Məzyədilərin Arrana nəzarətini itirməsi, bölgədə kiçik dövlətlərin yaranması Tiflisə də təsirsiz ötüşmədi. Tiflisdə hakimiyyətə İshaq ibn İsmayılın yaxın adamlarından olan Qabil (mənbədə Qabulos) (878-882) gəldi. Qabil öz hakimiyyəti dövründə qardabanlıları - girdimanlıları əmirliyə tabe etmişdi[19].

Qabildən sonra, IX əsrin 80-ci illərindən etibarən Tiflisdə sülalə dəyişikliyi baş vermiş, əmirlik taxtına Cəfər ibn Əli seçilmişdi. Onun adı Yusif ibn Əbu Sacın Tiflisə yürüşü zamanı (908-914) xatırlanır. Yusifin bölgəyə gəlməsi ilə onlar Sacilər sülaləsinin idarə etdiyi Azərbaycan dövlətinin tərkibinə qatılır, vassal asılılığını qəbul edirlər. Cəfərilərə, hətta Şuaybilər sülaləsinin ən məşhur nümayəndəsi İshaqın həyata keçirə bilmədiyi mühüm vəzifəni – Tiflis əmirliyi vəzifəsini uzun müddətə irsiləşdirməyi reallaşdırmaq nəsib olmuşdu.

XI əsrdən etibarən Qafqazdakı xristian qüvvələri bölgədə güclənmişdi. Onlarla mübarizə şəraitində Tiflis ətraf ərazilərini itirərək çox vaxt yalnız şəhərdən ibarət kiçik qala-dövlətə çevrilmişdi. Tiflis üzərinə belə təhlükəli yürüşlərdən biri 1037/1038-ci ildə baş vermişdi. Abxaz-Kartli hökmdarı IV Baqrat Arran/Şəki məlikliyi ilə ittifaqa girərək Tiflis üzərinə yürüş təşkil etmiş, şəhəri iki il mühasirədə saxlamışdı. Tiflis əmiri III Cəfərə Şəddadi hökmdarı II Ləşkərinin son anda yardımı

---

[17] Ət-Təbəri, Əbu Cə’fər Muhamməd ibn Cərir. Tarix ər-Rusul və əl-Muluk. 11 cilddə. IX cild. Təhqiq Muhamməd Əbu əl-Fadl İbrahim. Qahirə, 1976, s. 192-193; İbn əl-Əsir, Əl-Kamil fi-t Tarix,11 cilddə. 6-cı cild Beyrut, 1987, s. 116; Степанос Таронский. Всеобщая история. Москва, 1864, с. 79

[18] Əl-Ya’qubi. Tarix. II c. Beyrut, 2010, s.454; Bünyadov Z.M. Azərbaycan VII–IX əsrlərdə. Bakı, 1989, s. 194; Dunlop D.M. Hazar Yahudi Tarihi. İstanbul, 2008, s. 209

[19] Gürcistan Tarihi (Eski Çağlardan 1212 Yılına Kadar). Gürc. çev. M.Brosset, Ankara, 2003, s. 231

və oğuz türklərinin Azərbaycanda üstünlüyü IV Baqratı mühasirəni dayandırmağa məcbur etmişdi[20].

1046-cı ildə vəfat edən III Cəfərdən sonra oğulları Əbulhica və Mansur arasında uzun müddətli taxt-tac mübarizəsi başlamışdı. Səlcuq hökmdarı Alp Arslan bu mübarizəni hər ikisini həbs edərək Tiflisin idarəsini Şəddadi hökmdarı II Fəzlə (1067-1073) tapşırmaqla həll etmişdi. II Fəzl burada çox qalmamış, şəhəri əvvəlcə dumanisli Sitilərəb (1068-1082), sonra isə şəhər rəisləri özləri idarə etmişdilər. Bununla da Tiflisdə Cəfərilər sülaləsinin hakimiyyətinə son qoyulmuşdu. Tiflisin daxili idarəetməsini şəhər əhalisi təmin etsə də, şihnə və hərbi rəhbər və digər vəzifələr səlcuqlu bürokratiyası tərəfindən təyin edilmiş, Tiflis Səlcuq imperiyasının şəhərlərindən birinə çevrilmişdi.

## *Azərbaycanın siyasi cəhətdən birləşdirilməsi və vahid Azərbaycan dövlətinin yaradılması prosesi*

### *Sacilər sülaləsi-Azərbaycan hökmdarları*

Sacilər sülaləsinin banisi olan adlı-sanlı sərkərdə Əbu Sac Divdad Usruşanadan (Mərkəzi Asiya) idi. O, “Afşin” titulu daşıyan türk əmirləri nəslindən idi. Əbu Sacın adı mənbələrdə ilk dəfə Babəkin əsir alınıb Bərzəndə, Afşinin iqamətgahına gətirilməsi münasibətilə çəkilmişdir[21]. Əbu Sacın Xilafət qarşısında hərbi xidmətləri o qədər böyük olmuşdu ki, xəlifə Mütəvəkkil onu Məkkə yolunun rəisi vəzifəsinə təyin etmişdi. Daha sonra bu status irsi olaraq Sacilərə etibar edilmişdi [22]. 889-ci ildə xəlifə Mütəmid (870-892) Əbu Sacın oğlu Məhəmmədi Azərbaycan və Şərqi Anadoluya hakim təyin etmişdi. O, Azərbaycanda hakimiyyəti ələ aldıqdan sonra özünü müstəqil elan edərək, xəlifəyə tabe olmaqdan boyun qaçırmış, Marağa şəhərini mərkəz etməklə Azərbaycanı müstəqil idarə etməyə başlamışdı.

Ümumiyyətlə bu dövrdə Azərbaycan (Burada Cənubi Azərbaycan nəzərdə tutulur.-red.) bir sıra ərəbdilli mənbələrdə keçmiş Atropatena bölgüsünə uyğun olaraq cənubda Zəncandan şimalda Araz çayına qədər, bəzən Bərdə və Muğan daxil olmaqla Kür çayına qədər göstərilir. Belə hallarda Arazdan şimaldakı torpaqlar “Yuxarı Azərbaycan” adlandırılırdı[23]. Lakin, Sacilər sülaləsi nümayəndələrinin Azərbaycan tarixindəki ən böyük xidmətləri ondan ibarətdir ki, onlar bu torpaqların vahid ad – Azərbaycan adı altında birləşməsi prosesini tamamlamış, xəritələrdə

---

[20] İbn əl-Əsir, Əl-Kamil fi-t Tarix, 8-ci cild. Beyrut, 1987, s. 226; Şərifli M. X. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı,1978, s. 203

[21] İbn əl-Əsir. VI cild (I nəşr), Beyrut, 1987, s.35

[22] Ət-Təbəri. IX cild, Qahirə, 1976, s. 85, 210, 549

[23] Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, 2016. S.221, 237,

Azərbaycan Dərbəndə kimi qeyd edilmiş, Saci və Salari sülalələrinin üzvləri "Azərbaycan hökmdarları", "torpaqların sahibləri" titulunu almışdılar[24].

Bu dövrdə Məhəmmədin fəaliyyətinin qarşısında ən böyük əngəllərdən biri mülkləri Şərqi Anadoluda yerləşən I Smbat (890-913) olmuşdur. O, xəlifəyə birbaşa tabe olmaqla Məhəmmədin hakimiyyətini qəbul etmək istəmir və öz mülklərini şimala doğru genişləndirməyə çalşırdı. Bu cəhdlərinə qarşı Afşin Məhəmməd 893, 896, 898-ci illərdə düşmən qüvvələrini darmadağın etmiş, nəticədə xəlifə Məhəmməd Afşin ibn Əbu Sacın nəinki Azərbaycan, eləcə də Şərqi Anadolu üzərindəki hakimiyyətini tanımışdı. Bundan sonra Məhəmməd öz qoşunlarını Tiflis müsəlmanlarını narahat edən gürcülərə qarşı yeritdi, Tiflisə daxil olaraq təhlükəni zərərsizləşdirdi. X əsrin əvvəllərində Azərbaycanda baş qaldıran taun xəstəliyi onun birləşdirmə siyasətini yarımçıq qoydu. 901-ci ilin martında Məhəmməd ibn Əbu Sac Bərdə şəhərində vəfat etdi. Məhəmməd öldükdən sonra hakimiyyətə gələn qardaşı Yusif ibn Əbu Sac (901-927) Sacilər sülaləsi nümayəndələri içərisində ən görkəmlisi olmuşdur.

I Smbatın Məhəmmədin vəfatından sonra yenidən xəlifə ilə separat danışıqlara getməsi, xəlifəni Yusifə qarşı qaldırması 907 və 913-cü illərdə Yusifi onun üzərinə yürüş həyata keçirməyə məcbur etdi. Şərqi Anadolu qəti olaraq Sacilərə tabe edildi və 914-cü ildə I Smbat Dəbildə dar ağacından asıldı. Yusifin müttəfiqi, Sacilərə tabe olub, bilavasitə onlara bac ödəməyi boynuna götürən I Smbatın qardaşı oğlu Aşot (914-928) qeyd olunan ərazidə vassal hakim kimi təsdiq edildi[25]. Bundan sonra Sacilər sülaləsinin rəhbərliyi altındakı Azərbaycan dövlətinin ərazisi qərbdə Ani və Dəbil şəhərlərindən şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan şimalda Dərbəndədək uzandı.

912-ci ildə Yusif xəlifə sarayındakı hərc-mərclikdən istifadə etmiş, 120 min dinar məbləğində illik verginin ödənilməsini dayandırmışdı[26]. Yusif ona qarşı göndərilən iki nizami ordunu məğlub etsə də, 919-cu ildə Ərdəbil yaxınlığında baş verən döyüşdə məğlub olmuşdu. Döyüş nəticəsində əsir düşən Yusif Bağdada aparılmış və zindana salınmışdı. O, əsirlikdə olan zaman Ərdəbildə möhkəmlənən qulamı Subuk ölkənin idarəsini əlinə almış və dövləti Yusifin müstəqillik prinsiplərinə uyğun idarə edərək vergini xəlifə xəzinəsinə göndərməmişdi. Nəticədə xəlifə əl-Müqtədir Yusifi zindandan azad edərək, onu yenidən Azərbaycan hakimi, Rey, Qəzvin, Əbhər və Zəncan valisi təyin etmişdi. Bunun müqabilində Yusif xəlifə xəzinəsinə ildə 500 min dinar məbləğində pul göndərməli idi. 922-ci ildə Ərdəbil şəhərinə gələn Yusif yenidən Azərbaycanda mövqeyini möhkəmləndirdi.

---

24 İbn Havqəl. Kitab Surat əl-Ard. Leyden, 1938. S.348, 354, 387

25 Степанос Таронский. Всеобщая история, s.113

26 Bünyadov Z.M. Azərbaycan VII–IX əsrlərdə., s. 207

Xəlifə nəinki Azərbaycan hakimini tutduğu vəzifədən çıxarmağa cürət etmiş, eyni zamanda özü onun gücündən asılı hala düşmüşdü. 927-ci ildə Yusifə Xilafətin ehtiyacı olduğunu bildirilmiş, Xilafəti xilas etmək məqsədilə üsyançı qüvvələr olan Bəhreyn qərmətilərinə qarşı döyüşə göndərilmişdi. Həmin ilin dekabrın sonunda Kufə qapıları qarşısında baş verən döyüş nəticəsində yaralanan Yusif əsir düşmuş və qərmətilər tərəfindən öldürülmüşdü[27].

Yusifdən sonra onun qardaşı oğlu, cəmi il yarım taxt-tac sahibi olmuş Əbülmüsafir əl-Fəth ibn Məhəmməd (928-929) Azərbaycan hakimi təyin edilmişdi. Əl-Fəthdən sonra hakimiyyət Sacilərin qulamı Vasif əs-Sirvaninin (929) əlinə keçmişdi. Vasif əs-Sirvanidən başlayaraq Azərbaycanı artıq Sacilər sülaləsinin üzvləri deyil, bu sülalənin qulamları (929-941) idarə etmişlər. Qulamlar da mənsub olduqları ailənin üzvləri sayıldıqları üçün bu dövr Sacilər sülaləsinin davamı kimi götürülür[28]. Vasifdən sonra Muflih (929-932) və Deysəm (932-941) Azərbaycan hakimləri oldular. 941-ci ildə Deyləm hakimi Salar Mərzban ibn Məhəmməd Sacilərin torpaqlarına hücum edərək Ərdəbili ələ keçirdi və hakimiyyəti Deysəmdən aldı. Beləliklə, Azərbaycanda Sacilərin 50 ildən artıq davam edən hakimiyyət dövrü başa çatdı.

### *Salarilər sülaləsi*

941-ci ildə Sacilər sülaləsinin Azərbaycan idarəçiliyini mənbələrdə Ali-Kəngər[29] (Kəngər ailəsi) adlandırılan Salarilər sülaləsi əvəz etdi. Salarilərin ilk nümayəndəsi Salar ləqəbi ilə tanınan Deyləm hakimi Məhəmməd ibn Müsafir olmuşdur. Onun oğlu Mərzban ibn Məhəmməd 941-ci ildə Sacilərin qulamı Deysəmin hökumətində maliyyə vəziri vəzifəsini daşıyan Əli ibn Cəfərin təhrikilə Azərbaycana hücum etmiş, Azərbaycanda hakimiyyəti ələ keçirmişdi[30].

Mərzbanın hakimiyyətinin başlanğıcında, 944-cü ildə ruslar Azərbaycana soxuldular. Onlar Xəzər dənizi vasitəsilə Kür çayının mənsəbinə çıxdılar və çayın axarına qarşı üzərək Bərdəyə çatdılar. Mərzban beş min nəfərlik qoşunla onlara qarşı çıxsa da, rusların Bərdəyə hücumunun qarşısını almaq mümkün olmadı[31]. Ruslar şəhəri ələ keçirib, xeyli insanı məhv etdilər, qırğından sonra əhalinin on min nəfərə yaxınını əsir aldılar. Mərzban tərəfindən şəhərin aramsız mühasirəsi rusları əldən salmışdı. Eyni zamanda, onların arasında dizenteriya xəstəliyi də yayılmışdı. Nəticədə ruslar Bərdəni tərk etmək məcburiyyətində qalmışdı. Onlar Bərdədən

[27] İbn əl-Əsir. Əl-Kamil fi-t Tarix, VII cild. Beyrut, 1987, s.32-33
[28] Şərifli M. IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan., s.157
[29] Yaqut Həməvi. Mu’cəm əl-Buldan. III c. Beyrut, 1977, s. 256-257
[30] Əbu Əli Əhməd ibn Muhamməd bin Yaqub Miskəveyh. Təcarib əl-Uməm və Təaqub ul-Himəm. V cild. Beyrut, 2003 – s.252
[31] Yenə orada, s. 265

Kür sahilindəki Mübarəki qəsəbəsinə qaçmış, burada onları hazır gözləyən gəmilərinə minərək, öz ölkələrinə tərəf üzmüşdülər[32].

Azərbaycanın şimal sərhədləri ilə yanaşı, cənub-şərq sərhədləri də təhlükə altında idi. Həmədan və İsfahan hakimi Büveyhilər sülaləsinin nümayəndəsi Ruknəddövlənin (941-977) bu istiqamətdə fəaliyyətinə qarşı müharibəyə başlayan Mərzban, 949-cu ildə Qəzvin yaxınlığındakı döyüşdə məğlubiyyətə uğramış və bir neçə sərkərdəsi ilə birlikdə əsir alınaraq İsfahan yaxınlığındakı Samiram qalasında həbsə salınmışdı[33]. 953-cü ildə Mərzban ibn Məhəmməd həbsdən qaça bilmiş, Ərdəbilə gələrək, Azərbaycanda öz hakimiyyətini bərpa etmişdi. Onun ölümündən sonra (957) oğulları və qardaşı Vəhsudan arasında hakimiyyət uğrunda mübarizə başlamışdı[34]. Hakimiyyət uğrunda Mərzbanın oğlanları – Cüstan, Nəsir, İbrahimlə əmiləri Vəhsudan arasındakı mübarizə İbrahimin qələbəsi ilə başa çatdı. İbrahimə fəxri paltar göndərən xəlifə onu Azərbaycanda Salarilər sülaləsinin nümayəndəsi kimi tanıdığını elan etmişdi[35]. Lakin, İbrahimin salarilərə tabe olan torpaqları birləşdirmək cəhdləri uğursuz olmuşdu. Daxili mübarizə nəticəsində zəifləmiş Salarilər 971-ci ildə Şəddadilər sülaləsi nümayəndələrinin Gəncəyə girməsi ilə böyük zərbə almışdılar: Gəncə ilə birlikdə Arran torpaqlarının bir hissəsi də Şəddadilərin ixtiyarına keçmişdi. Arazdan şimalda mövqelərini itirən Salarilər Arazdan cənubda da təhlükə ilə üzləşmişdilər. Təbriz hakimi Əbülheyca ibn Rəvvad 981-ci ildə Salari hökmdarı İbrahimə qarşı mübarizəni gücləndirdi və bu mübarizə Rəvvadilər sülaləsinin Azərbaycanda (Arazdan cənubdakı torpaqlarda) taxta çıxması ilə nəticələndi[36]. Beləliklə, Azərbaycanda Salarilər süləsinin hakimiyyət dövrü başa çatdı.

## *Rəvvadilər sülaləsi*

Rəvvadilər ərəb mənşəli Əzd (Bənu – Əzd) qəbiləsinə mənsub olmuşdular. VIII əsrin sonlarında Azərbaycan, Arran və Şərqi Anadolunun canişini Yəzid ibn Xatim əl-Mühəlləbi (785-786) xəlifənin sərəncamı ilə Bəsrədən əzd qəbiləsindən olan yəmənli Rəvvad ibn əl-Müsənnanı həmqəbilələri ilə birlikdə Təbrizdən Bəzzə qədər olan ərazilərdə yerləşdirmişdi və bu torpaqların idarəsi Rəvvada verilmişdi[37]. IX əsrin əvvəllərində Məhəmməd ibn Rəvvadın dövründə (813-845) Arazdan cənubdakı Azərbaycan torpaqlarının böyük bir hissəsinin Rəvvadi hakimiyyəti altında olduğu məlum olur[38]. Başqa yerli hakimlər kimi Rəvvadilər də əvvəllər Sacilərə, sonra isə

---

[32] Yenə orada, s.265-268
[33] İbn əl-Əsir, Əl-Kamil fi-t Tarix, VII cild, Beyrut, 1987, s.228
[34] Şərifli M. IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri, s.229
[35] İbn Miskəveyh. Təcarib əl-Uməm. V cild., Beyrut, 2003, s. 332
[36] Şərifli M. IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri., s.322
[37] Yaqubi. Tarix. II c., Beyrut, 2010, s. 309
[38] Şərifli M. IX əsrin ikini yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri., s. 319

Salarilərə vergi ödəmiş, onların vassal asılılığında olmuşdular. X əsrin 70-ci illərində güclənən ara müharibələri Rəvvadi Əbülhicanın Salari hökmdarı İbrahim üzərində qələbəsi ilə nəticələnmişdi. 981-ci ildə İbrahimi zindana saldıran Əbülhica, Arazdan cənubda olan Salari torpaqlarının bir hissəsini də ələ keçirib, öz mülklərinə qata bilmişdilər. Mənbələrdə onlar da Sacilər və Salarlər kimi Azərbaycan hakimi adlanırlar. Özündən əvvəlki iki sülalə kimi Rəvvadilər Azərbaycanın şimalını da öz torpaqlarına qata bilməmişdilər.

Rəvvadilər əsasən Azərbaycana qərb istiqamətindən təhlükə yaradan Bizans dəstəkli xristian koalisiyasına qarşı mübarizə aparmış, bu istiqamətdə çoxsaylı yürüşlər təşkil etmişdilər. Belə yürüşlərin birində 988-ci ildə Vaspurakanda (Van gölünün cənubu və şərqində əyalət) vəfat edən Əbülhicanı oğlu Məmlan (988-1019) əvəz etmişdi[39]. Məmlan Bizans nəzarəti altında olan xristian qüvvələri üzərinə iki dəfə hücum etmişdi. Mənbələrdə Məmlanın ikinci hücumu daha geniş təsvir edilib. Tao-Klarceti əyalətinin (Çorox çayının mənsəbindən Kür çayının mənbəyinə qədər olan ərazi) hakimi və bölgənin Bizans valisi kuropalat III David Baqrationi müsəlmanlara məxsus olan Malazgird bölgəsini ələ keçirmiş, buradakı məscidi dağıtmışdı. 998-ci ildə Məmlan itirilmiş torpaqları geri almaq, Karində (Ərzurum) qayda-qanun yaratmaq və Tao bölgəsinə yürüş etmək üçün səfərə çıxmışdı. Məmlan ilk toqquşmalarda ona qarşı yaradılmış xristian koalisiyasına qarşı uğurlar qazanmış, lakin döyüşün sonrakı mərhələsində məğlubiyyətə düçar olmuşdur[40].

Məmlandan sonra hakimiyyət oğlu Vəhsudanın (1019-1059) əlinə keçdi. Bu Rəvvadi hökmdarının hakimiyyəti dövründə oğuzların Azərbaycana miqrasiyası başlamışdı. Oğuzları öz təbəəliyinə qəbul edən Vəhsudan onlardan Bizans imperiyasına, eləcə də digər iri feodallara qarşı mübarizədə uğurla istifadə etmişdi[41].

İlk oğuz yürüşlərinin ardınca 1054-ci ildə Sultan Toğrulun başçılığı altında Səlcuqlu qoşunları Təbriz şəhərinə yaxınlaşdılar. Vəhsudan, Sultan Toğrulun hakimiyyətini tanımış, adına xütbə oxunmasını əmr edirək ona qiymətli hədiyyələr vermişdi. Vəhsudanın ölümündən (1059) sonra Sultan Toğrul onun oğlu II Məmlanı Azərbaycan hakimi təyin etmişdi[42]. 1065-ci ildə Alp Arslan Təbrizə səlcuq əmiri təyin edir[43]. Rəvvadilər sülaləsi davam etsə də, Azərbaycan hakimi titullarını itirirlər.

### *Albaniya (Arran) taxtı uğrunda mübarizə*

#### *Şəki məlikliyi*

[39] Степанос Таронский. Всеобщая история., s. 141
[40] Yenə orada, s. 191-196
[41] Faruq Sümər. Oğuzlar. Bakı, 1992 – s.98-99
[42] İbn əl-Əsir. Əl-Kamil fi-t Tarix, VIII cild – s. 316
[43] Şərifli M. IX əsrin ikini yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri, s.332

Albaniyada Mehranilərin hakimiyyəti ləğv edildikdən sonra ölkənin bilavasitə ərəblərə tabe edilmiş ayrı-ayrı vilayətlərində mənşəcə həmin sülaləyə mənsub knyazların-məliklərin imtiyazları qorunub saxlanılmışdı. IX yüzilin son rübündə - 886-cı ildə, Qriqor Hammam "dağılmış Alban padşahlığını bərpa" edərək, tarixi Albaniyanın vilayətlərindən olan Şəki daxil olmaqla Albaniyanın bir hissəsində hakimiyyəti ələ aldı[44]. Bu dövrdən həmin vilayət "Albaniya/Arran padşahlığı" adlanmağa başladı.

X əsrin əvvəllərində Hammamı oğlu Azərnərsə (Atrnerseh və ya Adarnerse) əvəz etdi. İbn Rusta onun haqqında belə qeyd edir: "Bu şəhərdə (Xayzan) Azərnərsə adlanan hökmdar var ki, üç dinə etiqad edir. Cümə günü müsəlmanlarla namaz qılır, şənbə günü yəhudilərlə, bazar günü xristianlarla ibadət edir"[45]. Buradan aydın olur ki, X əsrdə Şəkidə xristian sülalə hökm sürsə də dini rəngarənglik hökm sürmüş, xristianlarla və müsəlmanlarla yanaşı, yəhudi xəzərlərin dü mövqeyi güclü olmuşdur. X əsrin ortalarında hökmdarlıq taxtında Azərnərsənin oğlu, albanların mömin hökmdarı Hammamın nəvəsi İşxanik oturmuşdu. Onun dövründə alban hökmdar sülaləsi monofizitlikdən (antixalkidon) diofizitliyə (pravoslav-xalkidon) keçid etmişdi. Bu keçiddə onun anası ortodoks Dinarın böyük təsiri olmuşdu[46]. Xristianlığın geniş yayılması şahzadə Dinarla əlaqələndirilir. İşxanikdən sonra taxta çıxan böyük oğlu Sənəkərim və ya Sənharib (təxminən 960-cı ildə taxta çıxmışdır) Şəkidən şimaldakı Sanariyanı da hakimiyyəti altında birləşdirdi. O, Kürün sağ sahilindəki bəzi əraziləri də öz mülklərinə qataraq "Alban taxt-tacının bərpaçısı" adını qazanmışdır[47]. Həm İşxanik, həm də Sənəkərim Salarilərdən asılı idilər və vassal kimi Azərbaycan xəzinəsinə vergi verirdilər[48].

Sənəkərimin vəfatından sonra (X əsrin sonları) nəslinin davam etməməsi Şəki hakimliyinin qüdrətini azaltdı. Bundan istifadə edən abxaz-kartli qoşunlarının Şəkiyə yürüşləri intensiv hal aldı. Abxaz hökmdarı III Baqrat ətrafına xristian koalisiyasını da yığaraq 1010-1012-ci illər arasında Şəkiyə daxil oldu və şahzadə Dinarı əsir aldı. 1012-1014-cü illərdə Şəki uğrunda Şəddadilər və xristian koalisiyası arasında gedən mübarizə Şəddadilərin bu torpaqlardan əl çəkməsi və Abxaz hökmdarı III Baqratla sülh bağlanması ilə nəticələndi[49]. Lakin, Kaxetiyanın (eyni zamanda

---

[44] Moisey Kalankatuklu- Albaniya tarixi. Mxitar Qoş – Alban salnaməsi. Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadov. Bakı, 1993, s.200; The History of the Caucasian Albanians by Movses Dasxuranci. Translated by C.J.F.Dowsett. London, 1961– p.221-222

[45] İbn Rusta, Əbu Ali Əhməd ibn Amr. Kitab əl-A'laq ən-nəfisə. Leyden, 1892, s. 147

[46] Gürcistan Tarihi (Eski Çağlardan 1212 Yılına Kadar)., s. 240; Şirinbəy Hacıəli. Şimal-Qərbi Azərbaycan:İngiloylar. Bakı, 2007, s.127

[47] Yenə orada

[48] İbn Havqəl. Kitab əl-Məsalik və əl-Məmalik. Leyden, 1873, s. 250, 254

[49] Gürcistan Tarihi (Eski Çağlardan 1212 Yılına Kadar)., s. 260-261

keçmişdə girdimanların və sanarların nəzarətində olan ərazi) hökmdarı III Kvirike 1014-cü ildə Şəkiyə daxil olur və "ranların (albanların) çarı" titulunu qəbul edir.

III Kvirikenin varisi Şəki hökmdarı I Axsitan (1058-1084) dövründə səlcuqlularla yaxınlaşma baş vermişdi. O, 1067-ci ildə Alp Arslanla görüşündə İslam dinini qəbul etmişdi. 1082-ci ildə isə hələ də İslam dinində qaldığını Məlikşahın yanında da təsdiq etmişdi[50]. Bu hadisə eyni zamanda daxili idarəçilikdə meydana gələn tələbatla bağlı idi. Belə ki, artıq bu dövrdə Şəki və ətraf bölgələrdə müsəlmanların sayı kifayət qədər artmışdı. Məhz bunun nəticəsi idi ki, birləşmiş Şəki-Kaxetiya hökmdarları XI əsrdən etibarən, hələ bölgəyə səlcuqlular gəlməmişdən əvvəl, xüsusilə III Kvirike (1010-1037) və I Qağikin (1039-1058) dövründən sikkələrini ərəb əlifbası ilə zərb etmiş, üzərində İslamın nişanəsi olan kəlimeyi tövhidi və İslam xəlifəsinin adını qeyd etmişdilər.

## *Şəddadilər sülaləsi*

Şəddadilər sülaləsinin banisi Məhəmməd ibn Şəddad ibn Qurtaq olmuşdur. Nüfuzlu hərbi əyan olan Məhəmməd ibn Şəddad 948-ci ildə Salari hökmdarı Mərzban ibn Məhəmmədin həbs olunmasından sonra Dəbil camaatının istəyi ilə şəhəri müdafiə etmək üçün dəvət edilmişdi. Bundan sonra o Dəbildə xristian qüvvələrinin ittifaqına qalib gələrək əhali arasında mövqeyini daha da möhkəmləndirmişdi. 953-cü ildə həbsxanadan qaçan Salari hökmdarı Mərzban Dəbili 955-ci ildə yenidən öz dövlətinə birləşdirmişdi[51].

Dəbil əldən çıxdıqdan sonra qardaşı Fəzlin və şəhər əhalisinin köməyi ilə Ləşkəri ibn Məhəmməd 971-ci ildə Gəncənin idarəsini ələ keçirmişdi. Şəddadilərin titulu Arranşah (Albaniyanın hökmdarı), dövlətləri isə Arran (Albaniya) adlandırılmışdır. Bu onu göstərir ki, Şəki məlikliyi ilə yanaşı, onlar da keçmiş Albaniya dövlətinin ərazisinin qanuni mirasına iddia edirdilər. Onların Şəki məlikliyindən fərqi Albaniyanın müsəlman əhalisinin üstünlük təşkil edən ərazisində hökm sürməsi və Albaniya/Arran dövlətçiliyini İslam bayrağı altında bərpa etmək, əraziləri bu ideologiya ilə birləşdirmək istəmələri olmuşdur.

Böyük qardaşı Ləşkərinin müstəqil siyasətini davam etdirən I Fəzl (985-1031) ilk olaraq 993-cü ildə Bərdə və Beyləqanı, daha sonra Xaçın, Sünik, Gorus, Taşir, savirlərin (sevordik) torpaqlarını, Dəbili və b. yerləri yenidən öz mülklərinə birləşdirir. Bu dövrdə Fəzlin abxaz hökmdarı III Baqratla (978-1014) da münasibətləri gərgin olmuşdu. 1027-ci ildə baş vermiş Şəmkir döyüşü Fəzlin parlaq qələbəsi ilə başa çatmışdı. Həmin ildə Fəzl məşhur Xudafərin körpüsünü inşa etdirmişdi.

---

[50] Садраддин Али ал-Хусайни. Ахбар ад-Даулат ас-Селджукиййа. Издание текста, перевод, введение, примечания и приложения З. М. Буниятова. Москва, 1980, с. 55; Gürcistan Tarihi (Eski Çağlardan 1212 Yılına Kadar)., s. 309

[51] Minorsky V. Studies in Caucasian History., p.8-12

1030-cu ildə Fəzlin oğlu Əskuyə atasına qarşı üsyan edərək, Beyləqanın müstəqil hakiminə çevrilmişdi. Fəzlin digər oğlu Musa qardaşına qarşı bu zaman Şirvanda olan ruslarla birləşmiş və onların köməyi ilə qələbə qazanmış, Əskuyə edam edilmiş, Beyləqan isə yenidən Şəddadilərin hakimiyyəti altına keçmişdi.

Şəddadilərin ən önəmli cəhətlərindən biri Sultan Toğrulun yürüşlərindən əvvəl Azərbaycan üçün Səlcuqlu gücünün əhəmiyyətini anlamaları olur. 1045-ci ildə xristian koalisiyası Əbul Əsvar Şavurun (1022-1049, Dəbil idarəçiliyi) idarəsində olan Dəbil mülkünə hücum etmişdilər. Bu vaxt Səlcuqlu komandanı Qutalmış Şəddadilərə köməyə gəlmiş və şəhər təhlükədən xilas olmuşdu. 1046-cı ildə Şəddadi və səlcuqluların birləşmiş qoşunu Gəncə yaxınlığında Bizans başçılığında xristian koalisiyasına böyük zərbə vurmuşdu.

Şavurun Gəncədəki hakimiyyət illərində (1049-1067) əsası Dəbildə qoyulmuş səlcuqlularla müttəfiqlik daha da qüvvətlənmişdi. Səlcuq sultanı Toğrul Şavurun yanına gəldikdə, Şəddadi hökmdarı sultanın hakimiyyətini qəbul edib, onun adını xütbələrdə çəkməyə başlamışdı.

1062-ci ildə xristianların müttəfiqi qismində çıxış edən alanlar Dəryal keçidini aşaraq Arana daxil olmuşdular. Şavur bu ani hücuma hazırlıqsız idi və belə halın təkrarlanmaması üçün Gəncənin müdafiəsini möhkəmləndirmişdi. Məşhur Gəncə qala qapıları da bu vaxt inşa edilmişdi[52].

1067-ci ildə Qafqazdakı xristian koalisiyanın hücumu ilə əlaqədar Şavurun müttəfiqi olan sultan Alp Arslan iki dəfə bölgəyə yürüş etdi. Elə həmin ildə 46 il (28 il Dəbildə, 18 il isə Gəncədə) hakimiyyətdə olmuş Şəddadi əmiri Şavur vəfat etdi[53]. Alparslan 1067-ci ildə, atasının ölümündən sonra hakimiyyətə gəlmiş Şəddadi II Fəzlə (1067-1073) Tiflis əmirliyinin idarəsini tapşırmışdı. 1072-ci ildə Şəddadi və Səlcuqlu ittifaqının bəhrəsi olaraq Ani şəhəri də Şəddadilərə verilmişdi. Buraya Əbuləsvar Şavurun kiçik oğlu, II Fəzlin qardaşı Mənüçöhr göndərilmişdi. Mənüçöhrün dövründə Ani inkişaf etdi və müsəlman şərqinin bir parçasına çevrildi.

1074-cü ildə II Fəzlin oğlu III Fəzl (və ya Fəzlun) atasına qarşı çıxmış, ölkənin idarəsini əlinə almışdı[54]. Məlikşah 1075-ci ildə buraya bir səfər gerçəkləşdirərək bütün bölgənin idarəsini Savtəkinə tapşırmışdı. Bir müddət sonra III Fəzl yenidən taxta iddia etsə də 1088-ci ildə Məlikşahın əmri ilə Əmir Bozan III Fəzli Gəncədəki taxtından endirmiş və hakimiyyətinə tam son vermişdi[55]. Şəddadilərin Gəncə qolu 1088-ci ildə qəti olaraq ləğv edilsə də, digər qolu olan Ani Şəddadiləri isə daha uzun ömürlü olmuş və 1199-cu ilədək bölgədə mövcudiyyətini qoruyub saxlamışdı.

---

[52] Yenə orada
[53] Yenə orada, p. 22
[54] Yenə orada, p. 24
[55] Urfalı Mateos Vekayi-namesi ve Papaz Grigorun Zeyli (çev. Hrant D. Andreasyan) Ankara, 2000. s. 171

## *Azərbaycan dövlətlərində idarəetmə sistemi. İqtisadi və mədəni həyat*

Azərbaycanda müstəqil dövlətlər yaranana qədər ən böyük titul xəlifə tərəfindən təyin edilən əmirlər – valilər olmuş və bürokratik aparat onların ətrafında cəmləşmişdir. Məhz bu aparatın rəhbərləri müstəqilliyə iddialı ən böyük şəxslər olmuşdular. Buna görə də müstəqillik qazanıldıqdan və elan edildikdən sonra da Azərbaycan dövlətlərində hökmdarlar əsasən "əmir", "məlik" kimi titullarla çağırılmışdır. Bunların arasında özünəməxsus titullar daşıyanlar da var idi. Sacilər, eyni zamanda öz sülalə titulları olan "Afşin" titulu ilə çağırılmış və mənbələrdə bu şəkildə də qeyd edilmişdilər. Məzyədilər və Şəddadilər "şah" titulunu (müvafiq olaraq "Arranşah" və "Şirvanşah") istifadə edirdilər. Şəki hakimləri "məlik" adlandırılırdı. Tiflis və Dərbənd hakimlərinin "əmir", Salarilər və Rəvvadilərin "məlik" titulu istifadə edildiyi müşahidə edilir. Hökmdarlar adətən rəhbər olduqları aparatda həm siyasi, həm də hərbi rəhbər olmuşdular.

Bürokratik aparatda ikinci vəzifəni adətən vəzirlər tuturdu. Onlar xəzinə, saray işləri, bürokratik sistemin idarə edilməsi kimi mühüm vəzifələri yerinə yetirirdilər. Vəzir Əbülqasim Əli ibn Cəfər Azərbaycan dövlətinin başına Salarilər sülaləsinə gətirmişdi[56]. Şəddadilərin vəziri Bəxtiyar ibn Salman isə Əbul Əsvar Şavuru Tiflisin açarlarını təslim almaq fikrindən daşındırmışdı[57]. Buradan vəzir aparatının nə qədər nüfuza malik olduğunu mümkündür.

Hökmdarların idarəçilikdə ən yaxın köməkçiləri xüsusi divan adlanan strukturlar idi. Bu strukturları müasir nazirliklərlə eyniləşdirmək olar. Vəzirlər bütün divanlara nəzarət edən baş divana rəhbərlik edirdilər. Divanul-ceyş (ordu nazirliyi), divanul-xərac (vergi nazirliyi), divanul-bərid (rabitə/poçt nazirliyi) və s. kimi divanlar mövcud olmuşdur[58].

Bəzi dövlətlərdə bir neçə mərkəzli muxtar idarəetmə sistemi var idi. Dövlət böyüdükcə ikinci mərkəz seçilir, vəliəhd və ya şahzadə ikinci mərkəzə hakim təyin edilirdi. Hökmdarın başına iş gəldikdə ikinci mərkəzdən gətirilən hakim taxta çıxarılırdı. Şəddadilər Gəncə ilə yanaşı, Bərdə və Dəbil şəhərlərini də paytaxt seçmişdilər. II Ləşkəri hakimiyyətdə olduğu zaman, Əbul Əsvar Şavur Dəbildə əmir idi. Ani şəhəri Şəddadilərə verildikdə bura yeni mərkəz seçilir, sülalə üzvlərindən Mənüçöhr əmir təyin edilir. Hətta, Şəddadilərin Gəncə hakimiyyəti sona çatdıqdan sonra belə Anidə hakimiyyəti davam edir. Tiflis əmirləri Dumanis və Bolnisdə öz əmirlərini təyin etmişdilər. Əbulhica və Mənsur qardaşlarının əmir taxtı üstündə

---

[56] Şərifli M. IX əsrin ikini yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri, s.165, 171

[57] Minorsky V. Studies in Caucasian History. –p.20

[58] Dursun H.Y. Sacilər. Tərcümə, əlavə, qeydlər. Əkbər Nəcəf. Bakı, 2019, s.140

sürən uzunmüddətli mübarizəsi Dumanis əmirliyindən Seyyidulərəbin Tiflis taxtına dəvət edilməsi ilə nəticələnmişdi.

İdarəçilik aparatında xilafətdən qalan ən əhəmiyyətli struktur ədalətin təminini təşkil edən qazılar idi. Məhkəmə sisteminin ən əhəmiyyətli siması olan qazıların mühtəsib (bazarlarda sabitliyi təmin edən), amil (vergi yığan), naib (köməkçilər), şurta (polis), katib və s. kimi köməkçiləri var idi. Şəki məlikliyində bu işləri, əsasən, hökmdar, yerli valilər və din xadimləri xristian dini ənənələrə əsasən həll edirdi.

Böyük şəhərlərin özünün xüsusi idarəetmə sistemi mövcud idi. Şəhərlərdə mövcud olan sənətkar, tacir birliklərinin rəhbərləri arasından seçilən rəislər nüfuza bağlı olaraq bu vəzifəni irsi də ötürə bilirdilər. Bəhs edilən dövrlərdə Dərbənd, Tiflis, Gəncə şəhərlərinin rəislərinin idarəçilikdə həlledici rol oynadığı müşahidə edilir.

Dövlətin əsas sütununu ordu təşkil edirdi. Sacilər dövründə ordunun əsas hərəkətverici qüvvəsi türk qulamlar idi. Yusif ibn Əbu Sac həbsdə olarkən onun qulamı Subuk dövlət idarəsini öz üzərinə götürmüşdü. Onun vəfatından sonra da türk qulamlar növbə ilə dövləti idarə etməyə başlamışdılar. Bu, orduda türk hərbi birləşmələrini üstünlüyünü göstərirdi. Sərhəd bölgələrində (Dərbənd, Tiflis) keçmiş dövrdə köçürülmüş ərəb qəbilələrindən "qazi" adlanan dəstələrin mövcudluğu məlumdur. Rəvvadilərdə Vəhsudanın dövründən etibarən orduda oğuzların nüfuzu artmağa başlamışdı. Ehtiyac olduğu zaman muzdlulara da müraciət edilirdi. Dərbənddə və Şəkidə "rus/varyaq" hərbi birləşmələri xidmət göstərmişdi. Ümumiyyətlə, IX-XI əsr Azərbaycan dövlətləri Xilafətin idarəetmə sistemini demək olar ki, xırda fərqliliklərlə eynisini tətbiq edirdilər.

IX-XI əsrlərdə başlıca vergi formaları cizyə və xərac (torpaq vergisi) idi. Qeyri-müsəlmanlar hərbi işlərə cəlb edilmədiyindən canlarının qorunması müqabilində onlardan cizyə alınırdı. Müsəlmanlardan xüms və zəkat da alınırdı. Qənimətlərdən alınan vergi xüms (beşdə bir), müəyyən zənginlik həddinə çatan varlılardan kasıbların və dövlətin xeyrinə isə zəkat alınırdı. Zəkat təsərrüfatın bütün növlərinə aid idi.

Azərbaycan bu dönəm siyasi cəhətdən birləşdiyi, sabitlik və stabillik yarandığı üçün iqtisadi cəhətdən inkişaf edir, əhalinin sayı artırdı. Bu özünü verilən vergilərin miqdarında da göstərir. Vəzir Əbulqasım Əli ibn Cəfərin qeydlərinə görə Şirvan 1 milyon dirhəm (Şəki hakimi Əbdülməlik ona ortaq idi), Sanariya hakimi İbn Səvada Sənharib 300 min dirhəm, Əbulhica Rəvvad Əhər şəhəri üçün 50 min dinar (1 dinar təxminən 20 dirhəmə bərabər idi), Xaçın sahibi Sənharib 100 min dirhəm vergi verirdi. Azərbaycanın ümumilikdə vergisi 4-4,5 milyon dirhəm miqdarında idi.[59] Bu eyni zamanda əyalətlərdəki əhalinin miqdarını göstərmək üçün də yaxşı məlumatdır.

İqtisadi vəziyyətin inkişafı öz təsirini şəhərlərdə də göstərirdi. Bəhs edilən dövrdə Marağa, Ərdəbil, Şamaxı, Gəncə, Tiflis, Dərbənd, Dəbil, Beyləqan, Urmiya

---

[59] İbn Havqəl. Kitab Surat əl-Ard. S.354-355; İbn Qudama. Kitab əl-Xərac. Bağdad, 1981, s.183

kimi şəhərlərin inkişafı nəzərə çarpır. Ərəb mənbələrində bu şəhərlərin böyük ticarət, mədəniyyət və sənətkarlıq mərkəzləri olduğu, abad bağlarla çevrələndiyi, əhalinin rifah səviyyəsinin yüksək olduğu haqda çoxlu məlumatlar vardır[60]. Böyük ticarət yollarının üstündə yerləşdiyi üçün Azərbaycan gömrükdən də böyük gəlir əldə etmişdir. Belə ki, Azərbaycandan Reyə gedən tacirlərin verdiyi gömrük vergisi illik 1 milyon dirhəmdən artıq idi[61].

Şəhərlər öz funksiyaları etibarilə elm, təhsil, mədəniyyət mərkəzləri rolunu da oynayırdılar. Ölkənin birləşməsi, sabitliyin yaranması, vahid İslam sivilizasiyasına daxil olmanın nəticəsində şəhərlərdə böyük təhsil müəssisələri yarandı. Şəhərlərdə təhsil əsasən ərəb dilində aparılırdı. Bu müəssisələrin məzunları lokal səviyyədə qalmadı, onlar Xilafətin digər mərkəzlərinə gedərək oradakı yeniliklərlə də tanış oldular. Qarşılıqlı əlaqələrin yaranması özünü hər sahədə büruzə verdi. Bu dövrdə Marağa, Tiflis, Dərbənd, Şamaxı, Bərdə və s. şəhərlərdən olan alimlərin nüfuzu bütün islam dünyasına yayılmışdı.

Hər şəhərin özünümüdafiə üçün çəkdiyi qala divarları, şəhər mərkəzlərində yerləşən cümə məscidləri, su-kanal və kanalizasiya sistemlərinin mövcudluğu Azərbaycanda yüksək şəhərsalma mədəniyyətindən xəbər verir. Şəmkir, Tiflis, Şamaxı, Dərbənd, Ərdəbil, Bakı, Bərdə və s. bu cür yüksək memarlıq planlarına sahib şəhərlər idi.

Ümumiyyətlə, bu dövrdə vahid dövlətin yaranması və bütün Azərbaycan ərazisinə nəzarət etməsi, ölkənin qərb və şimaldan gələn təhlükələrə qarşı daha hazırlıqlı olması, xalqın vahid İslam ideologiyası əsasında birləşməsi, İslam sivilizasiyasının digər mərkəzləri ilə mütəmadi əlaqələr Azərbaycanda İntibah dövrünə zəmini hazırlayan əsas amillərdən oldu.

---

[60] Şərifli M. IX əsrin ikini yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri, s.376
[61] İbn Havqəl. Kitab Surat əl-Ard., s.353